*Linqvistika problemləri. Cild 1, №2, 2020, s.182-190*

# AFAD QURBANOV VƏ ONOMASTİK SİSTEM MƏSƏLƏSİ

İlahə Həsənova
ADNSU, Azərbaycan dili kafedrası
E-mail: ilaha.hasanova72@mail.ru

## XÜLASƏ

Dünya dillərinin leksik sistemi, lüğət tərkibi, əsasən, iki tərkib hissəyə ayrılır. Bunlardan biri apelyativ leksika - ümumi sözlər, ikincisi isə onomastik leksika-xüsusi sözlərdir. Azərbaycanda onomastik leksikanın sistemli şəkildə, elmi-əsaslarla öyrənilməsinə XX əsrin ikinci yarısından başlanılmışdır. Xüsusi sözlərin də hər biri dil vahidi-söz olduğuna görə maraqlı linqvistik, hətta mənsub olduğu xalqın həyatında mühüm rola malik olan ekstralinqvistik cəhətləri də əks etdirir.

Dildə xüsusi sistem təşkil edən onomastikanın öyrənilməsi xüsusi əhəmiyyətə malikdir. Bu, eyni zamanda çürəkkəb dil məsələsidir. A.Qurbanovun fikrincə: "Onomastikada system onomastik dil hadisələri, cərgə və ifadə vasitələrinin cəmi" (1. s.16) deməkdir. Buraya eyni zamanda onomastik vahidlərin yaranması, inkişafı, dəyişməsi, ehtiva etdiyi bütün dil kateqoriyalar və s. məsələlər daxil edilə bilər.

Dilçilikdə mövcud olan makro və mikrosistem anlayışı onomastikada da mövcuddur. A.Qurbanovuntəsnifatınaəsasən, onomastiksisteməyeddi system daxildir:
1.Antroponimik sistem 2.Toponimik sistem 3.Hidronimiksistem 4. Zoonimiksistem 5. Etnonimik sistem 6.Kosmonimik sistem 7. Ktematonimik system.

Göstərilənlərin hər biri ayrılıqda bir sistemdir. Lakin onları təşkil edən yarımsistemlər, mikrosistemlər də mövcuddur. A.Qurbanov onomastikada system və yarımsistemlərin, makro və mikrosistemlərin öz aralarındakı və digər sistemlərlə olan əlaqələrini müqayisə etmiş, geniş şəkildə təhlilə cəlb etmişdir.

Ümumi şəkildə onomastik sistem deyərkən bütün növ onomastik vahidlər nəzərdə tutulur. Onomastik yarımsistem dedikdə isə yuxarıda göstərilən və yeddi qrupa daxil olan ayrı-ayrı qruplar nəzərdə tutulur. Burada sistem məsələsi bir qədər nisbi mahiyyət kəsb edir. Eyni zamanda biz antroponimiyanı sistem adlandırsaq, onun daxili növləri ad, soyad, təxəllüs, ləqəb, ayama, nisbə və s. yarımsistem və ya mikrisistem adlandırıla bilər. Bütövlükdə dil sistemləri arasında, eyni zamanda onomastik sistemlər arasında möhkəm daxili və xarici əlaqə mövcuddur. Bu cür əlaqə "onomastik sistem əlaqəsi" (1. s.17) adlanır. Eyni zamanda sistemlər və yarımsistemlər arasındakı sabitliyi pozan cəhətlərə də rast gəlinir. Zaman- zaman bu əlaqələr yox ola və dəyişə bilər.

"Onomastikanın hər bir yarımsistemi və ya mikrosistemi dilin ümumi leksik sistemi ilə dialektik əlaqədədir, bunların da inkişafı onun qanunauyğunluqlarından asılıdır" (1.s.17).

Azərbaycanda onomalogiyanın bir elm kimi formalaşması, sistem və əlaqə problemləri, ümumiyyətlə, onomastikaya daxil olan bütün məsələlər prof. A.Qurbanov tərəfindən geniş şəkildə işlənmiş, Azərbaycan Onomastik məktəbi yaradılmışdır.

**Açar sözlər:** Afad Qurbanov, onomastika, system məsələsi, əlaqə problemi.

## АФАД ГУРБАНОВ И ВОПРОСЫ ОНОМАСТИЧЕСКОЙ СИСТЕМЫ

**ОБЗОР:**

Лексическая система мировых языков, словарь, делится на две основные части. Один из них - апелляционный словарь - общие слова, а другой - ономастический словарь, относящийся к конкретному словарю. Систематическое, научно обоснованное изучение ономастической лексики в Азербайджане началось во второй половине XX века. Каждое из специальных слов интересно из-за того факта, что язык является единицей речи, и он также отражает внешние аспекты жизни, которые играют важную роль в жизни людей, которым он принадлежит.

Особое значение имеет изучение ономастики, которые образуют особую систему в языке. Это также сложная языковая проблема. По словам А. Гурбанова: «Ономастическая система означает сумму ономастических языковых явлений, ареал и средства выражения» (с.16). Это также включает создание, развитие, изменение, все языковые категории, содержащие ономастические единицы, и так далее. вопросы могут быть включены.

Понятие макро и микросистемы в лингвистике также присутствует в ономастике. Согласно классификации А. Гурбанова, ономастическая система включает в себя:

1. Антропонимическая система 2. Топонимическая система 3. Гидронимсистема 4. Система Zoonimix 5. Этнонимическая система 6. Космонимическая система 7. Ктематонимическая система.

Каждый из них представляет собой отдельную систему. Однако есть также подсистемы и микросистемы, которые их составляют. А.Гурбанов сравнивал и взаимодействовал с системами и полусистемами, макросами и микросистемами между собой и другими системами в ономастике.

Вообще говоря, ономастическая система относится ко всем типам ономастических единиц. Ономастическая подсистема относится к отдельным группам, указанным выше, и к семи группам. Здесь системный вопрос имеет относительное значение. В то же время, если мы называем

антропонимию как систему, ее внутренние типы включают имена, фамилии, псевдонимы, псевдонимы, цитаты, отношения и так далее. можно назвать полусистемой или микросистемой. Существует тесная внутренняя и внешняя связь между языковыми системами, а также ономастическими системами в целом. Этот тип соединения называется «ономастическим соединением системы» (1. стр.17). В то же время между системами и подсистемами существуют также тревожные аспекты. Время от времени эти отношения могут исчезать и меняться.

«Каждый подкомитет или микросистема ономастики имеет диалектическую связь с общей лексической системой языка, и его развитие зависит от его регулярности» (1.с.17).

Становление ономологии в Азербайджане как науки, проблемы системы и коммуникации и вообще все вопросы, связанные с ономастикой, проф. Азербайджанская школа ономастики была широко разработана А. Гурбановым.

**Ключевые слова:** Афад Гурбанов, ономастика, системные проблемы, проблемы общения.

## AFAD GURBANOV AND THE ONOMASTIC SYSTEM ISSUES

**SUMMARY:**

The lexical system of the world languages, the dictionary, is divided into two main parts. One is appellate vocabulary - common words and the other is onomastic vocabulary-specific words. Systematic, scientific-based study of onomastic vocabulary in Azerbaijan began in the second half of the twentieth century. Each of the special words is interesting because of the fact that the language is a unit of speech, and it also reflects the extrinsic aspects of life that play an important role in the lives of the people to whom it belongs.

Of particular importance is the study of onomastics, which form a special system in the language. It is also a complex language issue. According to A. Gurbanov: "Onomastic system means the sum of onomastic language phenomena, range and expression means" (p.16). It also includes the creation, development, change, all language categories containing onomastic units, and so on. issues can be included.

The notion of macro and microsystem in linguistics is also present in onomastics. According to A. Gurbanov's classification, the onomastic system includes:

1.Antroponimic system 2.Toponimic system 3.Hydronimsystem 4. Zoonimix System 5. Ethnonimic system 6.Cosmonimic system 7. Ktematonimic system.

Each of these is a separate system. However, there are also sub-systems and microsystems that make up them. A.Gurbanov compared and interacted

with systems and semi-systems, macros and microsystems among themselves and other systems in onomastics.

Generally speaking, the onomastic system refers to all types of onomastic units. The onomastic subsystem refers to the separate groups referred to above and to the seven groups. Here the system issue is of relative relevance. At the same time, if we call anthroponymy as a system, its internal types include names, surnames, pseudonyms, nicknames, quotations, ratios, and so on. can be called semi-system or microsystem. There is a strong internal and external connection between language systems as well as onomastic systems as a whole. This type of connection is called the "onomastic system connection" (1. p.17). At the same time, there are also disturbing aspects between systems and sub-systems. From time to time these relationships may disappear and change.

“Every subcommittee or microsystem of onomastics has a dialectical relationship with the general lexical system of the language, and its development depends on its regularity” (1.s.17).

Formation of onomology as a science in Azerbaijan, problems of system and communication, and in general, all issues related to onomastics, prof. Azerbaijan Onomastic School was widely developed by A. Gurbanov.

**Keywords**: Afad Gurbanov, onomastics, system issues, communication problems

## ANNOTASİYA

Azərbaycan dilçiliyində onmologiya elminin əsasını qoyan, “Onomastika” Elmi Cəmiyyətini yaradan və bu Cəmiyyətin proqramı olaraq “Onomastika” jurnalını təsis edən prof. A. Qurbanovun xalqımız və elmimiz qarşısında sonsuz xidmətlərindən biri də ayrı-ayrı onomastik sistemlər, makro və mikrosistemlər arasında olan əlaqələri müəyyən etmək, onların intensivliyini aydınlaşdırmaq, meydana gələn hibrid dil vahidlərinin işlənmə tezliyini təyin etmək olmuşdur. A.Qurbanovun əsərləri, elmi-nəzəri fikirləri bu gün də Azərbaycan elminə xidmət edir. Afad Qurbanov bu gün də yaşayır, çox sevdiyi xalqına xidmət edir və bundan sonra da edəcək.

## GİRİŞ

Dünya dillərinin leksik sistemi, lüğət tərkibi, əsasən, iki tərkib hissəyə ayrılır. Bunlardan biri apelyativ leksika - ümumi sözlər, ikincisi isə onomastik leksika-xüsusi sözlərdir. Azərbaycanda onomastik leksikanın sistemli şəkildə, elmi-əsaslarla öyrənilməsinə XX əsrin ikinci yarısından başlanılmışdır. Xüsusi sözlərin də hər biri dil vahidi-söz olduğuna görə maraqlı linqvistik, hətta mənsub olduğu xalqın həyatında mühüm rola malik olan ekstralinqvistik cəhətləri də əks etdirir.

Dildə xüsusi sistem təşkil edən onomastikanın öyrənilməsi xüsusi əhəmiyyətə malikdir. Bu, eyni zamanda çürəkkəb dil məsələsidir.

A.Qurbanovun fikrincə: “Onomastikada system onomastik dil hadisələri, cərgə və ifadə vasitələrinin cəmi” (1. s.16) deməkdir. Buraya eyni zamanda onomastik vahidlərin yaranması, inkişafı, dəyişməsi, ehtiva etdiyi bütün dil kateqoriyalar və s. məsələlər daxil edilə bilər.

Dilçilikdə mövcud olan makro və mikrosistem anlayışı onomastikada da mövcuddur. A.Qurbanovun təsnifatına əsasən, onomastik sistemə yeddi system daxildir:

1.Antroponimiksistem
2.Toponimiksistem
3.Hidronimiksistem
4. Zoonimiksistem
5. Etnonimiksistem
6.Kosmonimiksistem
7. Ktematonimik system.

Göstərilənlərin hər biri ayrılıqda bir sistemdir. Lakin onları təşkil edən yarımsistemlər, mikro sistemlərdə mövcuddur. A.Qurbanov onomastikada sistem və yarımsistemlərin, makro və mikro sistemlərin öz aralarındakı və digər sistemlərlə olan əlaqələrinin müqayisə etmiş, geniş şəkildə təhlilə cəlb etmişdir.

Ümumi şəkildə onomastik sistem deyərkən bütün növ onomastik vahidlər nəzərdə tutulur. Onomastik yarım sistem dedikdə isə yuxarıda göstərilən və yeddi qrupa daxil olan ayrı-ayrı qruplar nəzərdə tutulur. Burada sistem məsələsi bir qədər nisbi mahiyyət kəsb edir. Eyni zamanda biz antroponimiyanı sistem adlandırsaq, onun daxili növləri ad, soyad, təxəllüs, ləqəb, ayama, nisbə və s. yarımsistem və yamikri sistem adlandırıla bilər. Bütövlükdə dil sistemləri arasında, eyni zamanda onomastik sistemlər arasında möhkəm daxili və xarici əlaqə mövcuddur. Bu cür əlaqə “onomastik sistem əlaqəsi” (1. s.17) adlanır. Eyni zamanda sistemlər və ya- rımsistemlər arasındakı sabitliyi pozan cəhətlərə də rast gəlinir. Zaman- zaman bu əlaqələr yox ola və dəyişə bilər.

“Onomastikanın hər bir yarım sistemi və ya mikro sistemi dilin ümumi leksik sistemi ilə dialektik əlaqədədir, bunların da inkişafı onun qanunauyğunluqlarından asılıdır” (1.s.17).

Azərbaycanda onomalogiyanın bir elm kimi formalaşması, sistem və əlaqə problemləri, ümumiyyətlə onomastikaya daxil olan bütün məsələlər prof. A.Qurbanov tərəfindən geniş şəkildə işlənmiş, Azərbaycan Onomastika məktəbi yaradılmışdır.

Onomastikadasistem lərarası və ya sistemdaxili əlaqəni daha dərindən anlamaq üçün yuxarıda qeyd etdiyimiz yeddi növdən birinə müraciət edə bilərik. Məsələn antroponimik sistem üzərində müşahidələr aparaq. A.Qurbanov Azərbay- can onomalogiyasının əsasları” (Bakı.2004. IIc) əsərində antroponimlər haqqında olduqca geniş, hərtərəfli bilgi vermişdir. O göstərmişdir ki, antroponimlər deyərkən şəxslə bağlı hər bir xüsusi ad kateqoriyası nəzərdə

tutulur. Məsələn; şəxs adları, soyadlar, ata adları, ləqəblər, nisbələr, ayamalar və s. bu adlar özləri antroponimik sistemin daxilində mikrosistem təşkil edir. Onların hər birinin ayrıca inkişaf tarixi, yaranıb formalaşma üsulları vardır.

Türk xalqlarında, o cümlədən də azərbaycanlılarda qədimdən yalnız şəxs adları olmuşdur. Həmin adlar isə insanlara hər hansı bir əlamətinə görə, gürdüyü bir iş nəticəsində verilmişdir. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, xalqımızın tarixində soyadlar daha sonrakı mərhələlərdə- XIX əsrdən işlənməyə başlamışdır. Antroponimləri incəliklə araşdıran alim bu adları iki qismə ayırmışdır: 1) Əsas adlar; 2) Köməkçi adlar (1.2c.s.11).

Burada əsas ad deyərkən rəsmi sənədlərdə qeyd olunan adlar, yənişəxsin adı, atasının adı və soyadı nəzərdə tutulur. Lakin bu xüsusiyyət bütün xalqlarda eyni deyil. Məsələn, Orta Asiya xalqlarında ata adı bizim dilimizdə olduğu qədər önəmli deyil. A.Qurbanov Azərbaycan antroponimik modelini belə müəyyənləşdirmişdir: ad- ata adı- soyad. Nümunə; Nadir Əli oğlu Əliyev.

Köməkçi ad kateqoriyasına isə rəsmi sənədlərdə qeyd edilməyən adlar: ləqəb, təxəllüs, ayama və s. daxildir. Antroponimləri A.Qurbanov iki növə bölmüşdür: adi-real adlar (Aydın, Əli, Samir və s.) və qeyri-adi- bədii antroponimlər (Keçiyev, Cinayətov və s.). Bizim əsas məqsədimiz sistemlər arasındakı əlaqəni öyrənmək olduğu üçün antroponimlərdən geniş bəhs etmək fikrində deyilik. Antroponimlər bəzən toponimlərin əsasında yaranmışdır. Antroponimlərin semantik qrupları sırasında topoantroponimlər mühüm bir həlqəni təşkil edir. Məsələn; 1) Altay-şəxs adı kimi. Altay-dağ adı kimi. 2) Himalay-şəxs adı kimi. 2) Himalay-dağ adı kimi və s.

Sistemlər arasında əlaqənin mümkünlüyü toponimik sistemdə də özünü göstərir. Məlumdur ki, toponimlər coğrafi məkanlara verilən adlardır. Lakin bu obyektlərin adlandırılması qədim dövrdə etnonimlərlə bağlanırdısa, son dövrdə coğrafi məkanlara adlar verilərkən antroponimlərə də müraciət olunmuşdur. Bu zaman əsas məqsəd olaraq tarixi şəxsiyyətlərin, Milli qəhrəmanların, dahi ədiblərin, yazıçıların və s. adlarının əbədiləşdirilməsi olmuşdur. Həzi Aslanov qəsəbəsi, Əhmədli kəndi, Nizami meydanı, Füzuli prospekti, Nəsimi küçəsi və s.

Şəxs adları əsasında formalaşan toponimlər antropotoponimlər adlanır. Antropotoponimlərdən başqa, toponimlərin digər sistemlərlə əlaqəsindən başqa növləri də meydana gəlmişdir.Məsələn;

1) Etnotoponimlər
2) Hidrotoponimlər
3) Zootoponimlər
4) Fitotoponimlər
5) Kosmotoponimlər

Etnotoponimlər etnonimik və toponimik sistemlər arasındakı əlaqəni əks etdirir.Tayfa, qəbilə adları əsasında formalaşan toponimlər etnotoponimlərdir.

Qədim tarixə malik toponimlərin böyük qismi xalqımızın təkamülündə iştirak etmiş etnosların adlarının əks etdirir. Məsələn; Muğanlı, Boyat, Udullu, Ulaşlı, Qaraqoyunlu, Təklə, Alpout və s. yüzlərlə toponim etnosların adlarını ehtiva edir.

Hidronimlərlə toponimlərin qarşılıqlı əlaqəsi nəticəsində yaranan-adlandırılan toponimlərhidrotoponimlər adlanır. Məsələn; Çayarxı, Çaykənd, Çaylı, Daşarx və s. toponimlər hidrotoponim hesab edilir.

Zoonimlərlə toponimlərin qarşılıqlı əlaqəsindən zootoponimlər meydana gəlir. Tarixən xalqımızın iqtisadi həyatının əsas hissəsini heyvandarlıq təşkil etmişdir. İnsanlar bəzən yaşadıqları coğrafi məkanları da adlandırarkən heyvan adlarından istifadə etmişlər. Ölkəmizin ərazisində mövcud olan Lökbatan, Atbatan, Qoyunbinəsi, Malbinəsi, Arıqıran, Qarğabazar, İnəkboğdu, Danaçı, Ördəkli, Qoçdərə və digər toponimlərin tərkibində zoonimlərin işləndiyi göz qabağındadır. Həmin məkanlar adlandırılarkən müxtəlif prinsiplər əsas götürülmüşdür:

1)Həmin heyvanın göstərilən ərazidə çox olması: Ördəkli, Soxulcanlı, Qazbölük, Qarğalıq, Ayıtalası, Ceyrançöl və s.

2) Heyvanlarla bağlı hər hansı bir bədbəxt hadisəyə işarə edilmişdir: Atölən, Lökbatan, Atbatan, Arıqıran, İnəkboğan və s.

3) Əhalinin heyvanlarla bağlı məşğuliyyəti əsas götürülmüşdür: Danaçı, Balıqçı, Balıqçılar, İlxıçı və s.

Onu da qeyd etmək lazımdır ki, zootoponimlər dilimizin onomastik sistemində çoxluq təşkil etmir. Eyni zamanda zoonimik sistem yalnız toponimmik sistemlə deyil, antroponimik sistemlə də əlaqəlidir. İnsanların heyvanlara münasibətinin ifadəçisi olaraq bəzən valideynlər öz övladlarına sevdikləri heyvanların adlarını vermişlər: Maral, Ceyran, Kəklik, Göyərçin, Tovuz kimi qadın adları; Pələng, Şir, Aslan kimi kişi adları yaranmışdır. Son dövrlərdə Laçın adının həm kişilərə, həm də qadınlara verilməsinin də şahidi oluruq.

Zoonimik sistemlə etnonimik sistem arasındakı əlaqə tarixi əhəmiyyət daşımışdır. Onların qarşılıqlı əlaqəsindən Qaraqoyunlu, Ağqoyunlu, Quşçu kimi etnosların adları yaranmışdır.

Dildə fitonimlər heyvanlara məxsus adları bildirir. Fitonimlər tarixən toponimlərin yaranmasında əsas vahidlərdən biri olmuşdur. Bunlara Çovdar (Daşkəsən), Almalı (Qax), Armudlu (Kəlbəcər), Qarağac (Sabirabad), Söyüdlü (Gədəbəy), Moruxlu (Gədəbəy), Laləzar (Şamaxı), Çinar, Çinarlar (Kürdəmir, Gədəbəy) və s. nümunə göstərmək olar. Göründüyü kimi, bu adlar təsviri xarakterli adlardır, coğrafi məkanın görünən xarakterik tərəflərini ifadə etmişdir.

Kosmotoponimlər adlandırılan xüsusi qrupda kosmonim və toponimlərin birliyindən yaranan dil vahidləri ümumiləşdirilmişdir. Məsələn; Günəş, Günəşli

(Dəvəçi, Xaçmaz), Şəfəq, Şəfəqli (Yardımlı) və s. Kosmotoponimlər Azərbaycan dilinin onomastik sistemində digər adlara nisbətən az işlənmişdir. Bunu belə izah etmək olar ki, elə səma cisimlərinin adlarını bildirən milli türk mənşəli sözlər də dilimizdə azlıq təşkil etmişdir. Kosmonimlər, əsasən, ərəb-fars və ya Avropa mənşəli olmuşdur. Lakin məskunlaşdıqları əraziləri adlandırarkən insanlar daha çox milli mənşəli sözlərdən istifadə etmişlər. Tarixilik etibarilə də kosmotoponimlər etnotoponimlərə nisbətən dilimizin inkişafının daha sonrakı dönəmlərinə aid dil faktları hesab edilir. Kosmonimlər qismən də olsa, antroponimlərə də təsir etmiş, iki sistemin əlaqəsindən kosmoantroponimlər meydana gəlmişdir. Məsələn; Günəş, Şəfəq, Ulduz, Sitarə, Aygün, Günay, Venera tipli adlar buna nümunədir və dilimizdə belə adlar da çox deyil.

Azərbaycan dilçiliyində onmologiya elminin əsasını qoyan, "Onomastika" Elmi Cəmiyyətini yaradan və bu Cəmiyyətin proqramı olaraq "Onomastika" jurnalını təsis edən prof. A. Qurbanovun xalqımız və elmimiz qarşısında sonsuz xidmətlərindən biri də ayrı-ayrı onomastik sistemlər, makro və mikrosistemlər arasında olan əlaqələri müəyyən etmək, onların intensivliyini aydınlaşdırmaq, meydana gələn hibrid dil vahidlərinin işlənmə tezliyini təyin etmək olmuşdur. A.Qurbanovun əsərləri, elmi-nəzəri fikirləri bu gün də Azərbaycan elminə xidmət edir. Afad Qurbanov bu gün də yaşayır, çox sevdiyi xalqına xidmət edir və bundan sonra da edəcək.

## AKTUALLIQ

Kosmotoponimlər adlandırılan xüsusi qrupda kosmonim və toponimlərin birliyindən yaranan dil vahidləri ümumiləşdirilmişdir. Məsələn; Günəş, Günəşli (Dəvəçi, Xaçmaz), Şəfəq, Şəfəqli (Yardımlı) və s. Kosmotoponimlər Azərbaycan dilinin onomastik sistemində digər adlara nisbətən az işlənmişdir. Bunu belə izah etmək olar ki, elə səma cisimlərinin adlarını bildirən milli türk mənşəli sözlər də dilimizdə azlıq təşkil etmişdir. Kosmonimlər, əsasən, ərəb-fars və ya Avropa mənşəli olmuşdur. Lakin məskunlaşdıqları əraziləri adlandırarkən insanlar daha çox milli mənşəli sözlərdən istifadə etmişlər. Tarixilik etibarilə də kosmotopo- nimlər etnotopponimlərə nisbətən dilimizin inkişafının daha sonrakı dönəmlərinə aid dil faktları hesab edilir. Kosmonimlər qismən də olsa, antroponimlərə də təsir etmiş, iki sistemin əlaqəsindən kosmoantroponimlər meydana gəlmişdir. Məsələn; Günəş, Şəfəq, Ulduz, Sitarə, Aygün, Günay, Venera tipli adlar buna nümunədir və dilimizdə belə adlar da çox deyil.

## TƏDQİQAT İŞİNİN METODLARI

Tədqiqat zamanı, əsasən, müqayisəli-qarşılaşdırmalı metoddan, statistik və üslubi metodlardan istifadə edilmişdir.

## NƏTİCƏ

Türk xalqlarında, o cümlədən də azərbaycanlılarda qədimdən yalnız şəxs adları olmuşdur. Həmin adlar isə insanlara hər hansı bir əlamətinə görə, gürdüyü bir iş nəticəsində verilmişdir. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, xalqımızın tarixində soyadlar daha sonrakı mərhələlərdə- XIX əsrdən işlənməyə başlamışdır. Kosmotoponimlər Azərbaycan dilinin onomastik sistemində digər adlara nisbətən az işlənmişdir. Bunu belə izah etmək olar ki, elə səma cisimlərinin adlarını bildirən milli türk mənşəli sözlər də dilimizdə azlıq təşkil etmişdir. Kosmonimlər, əsasən, ərəb-fars və ya Avropa mənşəli olmuşdur. Lakin məskunlaşdıqları əraziləri adlandırarkən insanlar daha çox milli mənşəli sözlərdən istifadə etmişlər. Tarixilik etibarilə də kosmotoponimlər etnotoponimlərə nisbətən dilimizin inkişafının daha sonrakı dönəmlərinə aid dil faktları hesab edilir. Kosmonimlər qismən də olsa, antroponimlərə də təsir etmiş, iki sistemin əlaqəsindən kosmoantroponimlər meydana gəlmişdir.

## ƏDƏBİYYAT

1. A.Qurbanov. Azərbaycan onomalogiyasının əsasları. I-II c. Bakı.2004
2. Eyvazova R. Əfqanıstanda türk mənşəli toponimlər. Bakı, “Elm”, 1995
3. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı, Yazıçı, 1989
4. Azərbaycan toponimləri. Ensiklopedik lüğət. Bakı, 1999
5. Qurbanov A. Azərbaycan dilinin onomalogiyası. Bakı, 1988
6. Общесоюзный классификатор – система обозначений обьектов административно-территориального деления союзи СССР и союзных республик, а также населённых пунктов, т. I, II, - М., 1976
7. Məşədiyev Q. Zaqafqaziyanın Azərbaycan toponimləri. Bakı, Elm, 1990